QANUN № 02 (376), 2026, s. 41-46

**Nəbiyev Mirhüseyn Əziz oğlu,**
hüquqşünas
E-mail: mirhuseyn.nabiyev@outlook.com
Orcid cod: 0009-0007-2495-5804

**UOT 342.9**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.526**

# VƏTƏNDAŞLARIN HÜQUQLARININ QORUNMASI İNZİBATİ HÜQUQUN ƏSAS VƏZİFƏSİ KİMİ

***Açar sözlər:*** *vətəndaş hüquqları, inzibati hüquq, hüququn qorunması, dövlət idarəçiliyi, hüquqi müdafiə, ictimai münasibətlər, hüquq normaları.*

***Ключевые слова:*** *права граждан, административное право, охрана прав, государственное управление, правовая защита, общественные отношения, правовые нормы.*

***Keywords:*** *citizens' rights, administrative law, legal protection, public administration, legal safeguards, public relations, legal norms.*

## Giriş

İnzibati hüquq sahəsi üzrə yerli müəlliflərin elmi əsərlərinin sistemli və müqayisəli təhlili göstərir ki, vətəndaş hüquqlarının qorunması müasir dövlətin və hüquq sisteminin fundamental prinsiplərindən biri kimi çıxış edir. Hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsinin təşkil olunması dövlətin idarəetmə funksiyalarının mühüm tərkib hissəsini təşkil edir [7, s. 23]. Məqalədə tədqiq edilən əsas anlayışlardan biri olan "inzibati hüquq" termini isə vətəndaşların hüquqlarının qorunmasında xüsusi rol oynayan müstəqil hüquq sahəsi kimi səciyyələndirilir.

Bu istiqamətdə formalaşdırılmış nəzəri ədəbiyyatda qeyd olunur ki, inzibati hüquq dövlət orqanlarının fəaliyyətini tənzimləyərək, vətəndaşların hüquqlarının pozulmasının qarşısını almaq və onların müdafiəsini təmin etmək məqsədini daşıyır [1, s. 3; 2, s, 14,  4, s. 26]. Bu baxımdan, inzibati hüququn əsas vəzifələrindən biri vətəndaşların hüquqlarının qorunmasıdır. Dövlət idarələrinin və digər icraedici orqanların fəaliyyəti zamanı hüquqların müdafiəsi mexanizmlərinin düzgün işləməsi, vətəndaş cəmiyyətinin inkişafı və sosial ədalətin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

## Əsas hissə

Müxtəlif hüquq sahələrinin ölkədən-ölkəyə dəyişməyən ortaq terminləri var: cinayət hüququnda "cəhd", "iştirakçılıq", mülki hüquqda "əqdlərin etibarsızlığı", yaxud da "əsassız varlanma" kimi [11, s. 38]. İnzibati idarəetmə hüququnda da, xüsusən kontinental Avropa hüquq sisteminə mənsub ölkələrdə inzibati hüququn oxşar və konseptual baxımdan yaxın anlayışları formalaşmışdır. Qeyd etməliyik ki, Avropa Birliyinin də, Birliyə daxil olan ölkələrin inzibati idarəetmə hüququnun yaxınlaşmasında marağı vardır. Xüsusən Fransanın "Droit Administratiff" AB Ədalət Məhkəməsinin qərarlarına təsir göstərdiyi üçün, başqa ölkələrdə qəbul edilir [10].

Tədqiqatçı V. Cəfərov qeyd edir ki, "*Hüquq sistemi çoxşaxəli olsa da, onu əsasən iki böyük qrupa – təbii və vətəndaş hüquqlarına bölürlər*" [3].

Vətəndaş hüquq və azadlıqlarının məcburi həddi başqa vətəndaşların hüquqları və ictimai həyatdır. Bu səbəbdən ictimai həyatın lazım bildiyi bəzi hallarda əsas azadlıqların məhdudlaşdırılması normal qəbul olunur [6, s. 65].

11 iyun 1999-cu il tarixli "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Qanunun 4-cü maddəsi inzibati hüquqi aktın qəbul edilməsi üçün əsas/səbəb olan ön aktlardan da qəti aktla bərabər məhkəməyə şikayət edilə biləcəyini və bunlar üzərində məhkəmə nəzarətini nəzərdə tutur [6, s. 222].

"İnzibati hüquq" termini əvəzinə "idarəçilik hüququ" termini istifadə olunsa, xüsusən xarici dilə tərcümə ediləndə – ingilis dilində "governing law", rus dilində isə "управленческое право" olacağına görə, bunun çox da uyğun gəlmədiyini görmək mümkündür. Bu baxımdan "idarəetmə" termini daha uyğun sayılır. Alman hüququnda da, "verwaltungs" sözü məhz idarəetmə mənasını verir [9, s. 6].

İnzibati hüququn strukturu yalnız ayrı-ayrı normativ elementlərin toplusu kimi deyil, həm də ardıcıl şəkildə təşkil olunmuş hüquqi sistem kimi qiymətləndirilməlidir [5, s. 21]. Bu sistemin daxili quruluşu onun funksional məzmununu, hüquqi təsir dairəsini və dövlət idarəçiliyində oynadığı rolu daha dəqiq anlamağa imkan verir. İnzibati hüququn pilləli şəkildə formalaşan bu quruluşu normativ aktların hüquqi qüvvəsindən başlayaraq onların tətbiq mexanizminə qədər bütün komponentləri özündə birləşdirir.

Sözügedən strukturun daha aydın təsəvvür olunması üçün inzibati hüququn əsasını təşkil edən normativ pillələrin qarşılıqlı əlaqəsini əks etdirən piramida modeli xüsusi önəm daşıyır. Bu model hüquqi sistemin iyerarxiyasını, normativ aktların bir-biri ilə uzlaşmasını və inzibati tənzimləmə mexanizminin məntiqi ardıcıllığını vizual şəkildə nümayiş etdirir.

**Sxem. İnzibati hüququn piramida modeli**



Vətəndaşların hüquq və azadlıqlarının səmərəli təmin edilməsi onların dövlətə inamını möhkəmləndirən vacib şərtdir. Bu baxımdan, Müvəkkil təsisatına dövlət qurumlarının diqqətinin və normal münasibətinin də böyük əhəmiyyəti vardır. Bütövlükdə ölkə üzrə götürdükdə, vacib məsələlərin həlli dövlət orqanları ilə Müvəkkilin, ictimaiyyətin mütləq əlaqəli və həmrəy fəaliyyət göstərməsini tələb edir. İnsan hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədidir. Məhz bu baxımdan dövlət qurumlarının Müvəkkillə səmərəli əməkdaşlığı yalnız insanların xeyrinədir, onların pozulmuş hüquq və azadlıqlarının təxirə salınmadan bərpa edilməsinə, dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edir [6, s. 370].

**Vətəndaşların hüquqlarının inzibati və hüquqi müdafiəsi**

Müharibədən sonrakı dövrdən etibarən vətəndaşların hüquqlarının qorunması müasir demokratik dövlətlərin əsas vəzifələri arasında möhkəm şəkildə yer almışdır. Bu məqsədlə bir sıra beynəlxalq hüquqi aktlar qəbul edilmişdir. Bunlardan başlıcası 1950-ci il tarixli İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Konvensiyasıdır. Hüquqi aktların qəbul edilməsi ilə yanaşı, insan hüquq və azadlıqlarının qorunması üçün beynəlxalq təşkilatlar da yaradılmışdır. Bu təşkilatlar arasında aparıcı vəzifələr Avropa İnsan Hüquqları Məhkəməsinə, BMT-nin İnsan Hüquqları Şurasına və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına həvalə edilmişdir.

Müasir inzibati hüquq davamlı olaraq inkişaf edir və vətəndaşların hüquqlarının hüquqi müdafiəsində getdikcə daha mühüm rol oynayır. Müəyyən edilmiş fəaliyyətin təyin edilməsi üçün istifadə olunan "vətəndaşların hüquqlarının inzibati-hüquqi müdafiəsi" termini bu cür müdafiənin subyektlərini və onların insan hüquqları fəaliyyətinin prosedur formalarını əvvəlcədən müəyyən edir. Göstərilən anlayışın birmənalılığı və hərtərəfli xarakteri onu təşkil edən terminlərin tərifinin birmənalı olmasını şərtləndirir. Belə terminlərə "inzibati və hüquqi müdafiə" və "vətəndaş hüquqları" daxildir [10, s. 227].

Müasir hüquq sistemində inzibati hüququn yeri və funksiyalarını düzgün anlamaq üçün onun normativ əsaslarına və dövlət idarəçiliyində oynadığı rola nəzər salmaq zəruridir. İctimai münasibətlərin tənzimlənməsi, dövlət orqanlarının fəaliyyət dairəsinin müəyyənləşdirilməsi və vətəndaş–dövlət münasibətlərində hüquqi balansın qorunması məhz inzibati hüququn yaratdığı normativ çərçivə vasitəsilə təmin olunur. Bu səbəbdən inzibati hüquq normalarının mahiyyəti və onların tətbiq mexanizmi haqqında alimlərin yanaşmalarına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, B.S.Atakişiyev qeyd edir: "*İnzibati hüquq normaları ictimai münasibətləri nizama salmaq üçün dövlət tərəfindən tətbiq edilən məcburi qayda və tələblərdir*" [2, s. 220].

Dövlət və vətəndaş münasibətlərinin səmərəli şəkildə tənzimlənməsi, eyni zamanda fərdlərin konstitusion hüquq və azadlıqlarının təmin olunması hüquqi dövlət quruculuğunun əsas şərtlərindəndir. Hüquqi dövlət prinsipinin reallaşması isə yalnız müvafiq normativ bazanın mövcudluğu ilə deyil, həm də bu normaların praktikada ardıcıl və səmərəli şəkildə tətbiqi ilə mümkündür. Bu baxımdan, hüquq və azadlıqların təminat mexanizmlərinin elmi ədəbiyyatda necə şərh olunduğuna diqqət yetirilməsi məqsədəuyğundur.

Təsadüfi deyil ki, V. Cəfərov qeyd edir: "*Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşlara tanınmış hüquq və azadlıqlar onların real həyata keçirilməsi üçün qanunvericilik, icra və məhkəmə orqanlarının fəaliyyətində qorunmalıdır*" [3, s. 10].

İnzibati hüququn mahiyyətinin və funksional yönlərinin araşdırılması, xüsusilə də onun cəmiyyət və dövlət münasibətlərində hansı nor-

mativ yükü daşıdığını müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Müasir hüquqi düşüncə inzibati hüququ yalnız dövlət idarəçiliyinin mexanizmi kimi deyil, həm də vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini təmin edən mühüm vasitə kimi qiymətləndirir. Bu səbəbdən müxtəlif müəlliflərin inzibati hüquq normalarına dair fikirləri məsələnin elmi şərhində dəyərli yanaşmalar təqdim edir. R.Rəşad göstərir ki, "*Vətəndaş cəmiyyətində inzibati hüquq normaları dövlətin idarəetmə səlahiyyətlərinin hüquqi çərçivədə həyata keçirilməsinə, həmçinin vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edən normativ davranış qaydaları sistemidir*" [8].

İnzibati hüququn strukturunu, fəaliyyət prinsiplərini və tətbiq mexanizmlərini tam şəkildə dərk etmək üçün bu sahənin əsas kateqoriyalarının sistemli şəkildə izahı mühüm əhəmiyyət kəsb edir. İnzibati münasibətlərin çoxşaxəli xarakteri dövlət idarəçiliyinin daxili təşkilati mexanizmlərini, habelə qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələrin məzmununu və hüdudlarını ifadə edən anlayışların dəqiq və vahid şəkildə şərhini zəruri edir. Bu anlayışların mahiyyətinə bələd olmaq yalnız nəzəri yanaşmanın formalaşmasına deyil, həm də inzibati aktların qəbul edilməsinin, hüquqların müdafiəsinin, nəzarət və hesabatlılıq mexanizmlərinin – səmərəli işləməsinə şərait yaradır.

Eyni zamanda, inzibati hüquq çərçivəsində istifadə olunan terminlərin aydınlaşdırılması, dövlət orqanlarının fəaliyyətinin hüquqi əsaslarını başa düşmək və vətəndaşların dövlətlə qarşılıqlı münasibətlərində mövcud olan hüquqi təminatları qiymətləndirmək baxımından da zəruridir. Bu səbəbdən aşağıdakı cədvəldə inzibati hüquq sahəsində geniş tətbiq olunan əsas anlayışlar və onların tərifləri sistemli şəkildə təqdim olunur.

İnzibati hüququn mahiyyətini və onun vətəndaş–dövlət münasibətlərində oynadığı rolu daha dolğun anlamaq üçün bu sahədə istifadə olunan əsas anlayışların izah edilməsi olduqca vacibdir. Hər bir hüquqi termin inzibati münasibətlərin düzgün şərh olunması, hüquqi proseslərin ardıcıllığının və funksionallığının başa düşülməsi baxımından önəm kəsb edir. Aşağıdakı cədvəldə inzibati hüququn əsas anlayışları və onların məzmunu sistemli şəkildə təqdim edilmişdir.

**Cədvəl. İnzibati hüququn əsas anlayışları və onların məzmunu**

| Anlayış | Tərif |
|---|---|
| İnzibati hüquq | Dövlət orqanlarının idarəetmə fəaliyyəti zamanı yaranan ictimai münasibətləri tənzimləyən hüquq sahəsidir |
| Vətəndaş hüquqları | İnsanların dövlət tərəfindən tanınan və qorunan əsas azadlıq, sosial, iqtisadi, siyasi və şəxsi hüquqlarıdır |
| Hüquqların qorunması | Dövlət orqanlarının və qanunvericilik sisteminin vətəndaşların hüquq və azadlıqlarını təmin etmək, pozuntuların qarşısını almaq və müdafiə etmək üçün gördüyü tədbirlərdir |
| İnzibati orqan | Dövlət idarəetməsi funksiyalarını həyata keçirən icra hakimiyyəti və ya xüsusi səlahiyyətli qurumdur |
| İnzibati akt | Dövlət orqanı tərəfindən vətəndaşın və ya təşkilatın hüquq və vəzifələrini müəyyən edən, dəyişdirən və ya dayandıran rəsmi qərardır |
| İnzibati prosedur | Dövlət orqanlarının qərar qəbul edərək riayət etməli olduğu hüquqi qaydalar və mərhələlər toplusudur |
| Şəffaflıq | Dövlət orqanlarının fəaliyyətinin açıq, ictimaiyyət üçün anlaşılan və izlənilə bilən olmasıdır |

| | |
|---|---|
| Hesabatlılıq | Dövlət qurumlarının qəbul etdiyi qərarlara görə hüquqi və ictimai məsuliyyət daşıması və vətəndaş qarşısında izahat verməsidir |
| İnzibati nəzarət | Dövlət orqanlarının fəaliyyətinə, qərarlarına, və icraatına nəzarət edən mexanizmlər sistemi (audit, daxili nəzarət, ombudsman və s.). |
| Müraciət hüququ | Vətəndaşların dövlət orqanlarına ərizə, şikayət, və təkliflərlə müraciət hüququdur |
| Şikayət proseduru | Vətəndaşın hüququ pozulduqda, inzibati qərarın dəyişdirilməsi və ya ləğv edilməsi üçün yuxarı orqana və ya məhkəməyə müraciət etmə qaydasıdır |
| Ombudsman (İnsan hüquqları üzrə müvəkkil) | Vətəndaşların hüquq və azadlıqlarının pozulması hallarında onların şikayətlərini araşdıran müstəqil dövlət institutudur. |
| Məhkəmə müdafiəsi | Vətəndaşların hüquq pozuntularının aradan qaldırılması üçün müstəqil məhkəməyə müraciət etmək imkanıdır. |
| İctimai xidmətlər | Dövlət və ya bələdiyyə orqanları tərəfindən əhaliyə göstərilən idarəetmə, sosial və digər xidmətlər (qeydiyyat, icazələr, sosial xidmətlər və s.). |

## Nəticə

Gələcəkdə bu istiqamət üzrə fundamental elmi tədqiqat işlərinin hazırlanması zamanı aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik. Xüsusilə, yazılmış elmi işlərdə inzibati hüququn mahiyyəti, predmeti və funksiyaları haqqında daha geniş nəzəri baza təqdim edilməlidir. Fikrimizcə, "vətəndaş hüquqlarının qorunması" anlayışının hüquq nəzəriyyəsindəki interpretasiyasını – hüquqi müdafiə, təminat mexanizmləri, hüquqi məsuliyyət və nəzarət aspektlərini ayrıca bölmədə izah etmək məqalənin elmi səviyyəsini yüksəldər. Eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiyası, "İnzibati icraat haqqında" Qanun, Ombudsman haqqında qanunvericilik və digər müvafiq normativ hüquqi aktlar üzrə ayrıca elmi məqalələrin hazırlanması sahənin sistemli tədqiqinə və hüquqi bazanın dərindən öyrənilməsinə töhfə verər. Normativ hüquqi aktlarda insan və vətəndaş hüquqlarının müdafiəsinə dair prinsiplər – qanunçuluq, şəffaflıq, obyektivlik, proporsionallıq gələcəkdə yazılmış dərslik və dərs vəsaitlərində də sistemləşdirilmiş şəkildə təqdim oluna bilər. İnzibati məsuliyyətin vətəndaş hüquqlarının müdafiəsinə təsiri – yəni hüquq pozuntularının qarşısının alınması, dövlət orqanlarının məsuliyyətinin gücləndirilməsi nəzəri və praktiki baxımdan elmi məqalələrdə geniş şərh edilə bilər. Elektron hökumət xidmətlərinin vətəndaş hüquqlarının müdafiəsində yaratdığı yeni imkanlar – şəffaflıq, operativlik, korrupsiya risklərinin azalması – gələcəkdə yazılacaq elmi məqalələrdə ayrıca müzakirə oluna bilər. Belə yanaşmanın təqdim edilməsi rəqəmsal məlumatların qorunması, şəxsi məlumatların emalı və kibertəhlükəsizlik məsələlərini müasir inzibati hüququn prioritet istiqamətlərindən biri kimi ön plana çıxararaq sahənin aktual problemlərinin öyrənilməsinə imkan verər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Abdullayev E. İnzibati hüquq və dövlət xidməti / – Bakı: "Qanun" jurnalı, – 2002. № 9, – s. 3–7.
2. Atakişiyev, B.S. İnzibati hüquq və terminlər: elmi əsər / B.S. Atakişiyev; red. N.O. Bağırov. – Bakı: [s.n.], 2008. – 312 s.
3. Cəfərov, V. Vətəndaş hüquqları // Ekspress, – 12 iyul 2017-ci il, – s.10.
4. Əliyev S.F. İnzibati hüquq: dərslik / S.F. Əliyev. – Bakı: Elm və təhsil, – 2023. – 635 s.

5. Quliyev A.İ. Azərbaycan inzibati hüquq elminə yeni töhfə / – Bakı: Elm, – 30 yanvar 2012. – s. 21.
6. Mehdiyev, F. İnzibati hüquq (Dərs vəsaiti). – Bakı: 2010. – 539 s.
7. Məmmədov, F. İnzibati hüquq elminin Azərbaycan Respublikasında bazar iqtisadiyyatı şəraitində vəzifələri / – Bakı: – "Qanun" jurnalı, – 2004. № 2, – s. 22–24.
8. Rəşad R. Vətəndaş cəmiyyətində inzibati hüquq normaları / R. Rəşad. – Ekspress, 12 avqust 2016, – s. 10.
9. Козырин, А.Н., Штатина, М.А., Зеленцов А.Б. Административное право зарубежных стран. – Москва: Спарк, – 2003, – 462 с.
10. Александрович, Н. Е. Административно-правовая защита прав граждан: вопросы терминологии // Вестник КГУ им. Н.А. Некрасова. – 2016. № 5, – с. 227–230.
11. Gözübüyük, Ş., Turgut, T. İdare hukuku, I Cild. – Ankara: Turhan Kitabevi, – 1998.

**Набиев Миргусейн Азиз оглу,**
юрист

**ЗАЩИТА ПРАВ ГРАЖДАН КАК ОСНОВНАЯ ЗАДАЧА АДМИНИСТРАТИВНОГО ПРАВА**

**РЕЗЮМЕ**

В современном обществе существует ряд отраслей права, обладающих особой актуальностью. Одной из таких отраслей является административное право, ключевой задачей которого выступает защита прав граждан в правовой системе. В статье проведён систематический анализ взаимодействия административного права и прав граждан, а также рассмотрены задачи органов государственной власти и механизмы обеспечения прав граждан.

Цель статьи заключается в толковании понятия «защита прав граждан как основная задача административного права», определяемого приоритетами прав и свобод граждан и обязанностями государства по их защите. Кроме того, в статье рассмотрены такие механизмы, как административный контроль, предупреждение правонарушений и применение правовых мер.

**Nabiyev Mirhuseyn Aziz,**
Lawyer

**PROTECTION OF CITIZENS' RIGHTS AS A FUNDAMENTAL FUNCTION OF ADMINISTRATIVE LAW**

**SUMMARY**

In the modern era, there are several fields that hold particular relevance, one of which is administrative law. Within the contemporary legal system, the protection of citizens' rights constitutes one of the fundamental functions of administrative law. This article systematically examines the interrelationship between administrative law and citizens' rights, as well as comprehensively analyzes the duties of state authorities and the mechanisms for ensuring the protection of citizens' rights.

The purpose of the article is to interpret the content of the concept of "the protection of citizens' rights as a fundamental function of administrative law," which is defined by the prioritization of citizens' rights and freedoms and the state's obligation to ensure their protection. Furthermore, the article explores mechanisms such as administrative oversight, the prevention of legal violations, and the application of legal measures.

**Redaksiyaya daxilolma tarixi: 12.02.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 19.02.2026**
**Çapa qəbul olunma tarixi: 26.02.2026**